

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 164 (21.825)

30 avqust 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Bu il muxtar respublikada taxıl əkini sahələrindən 93 min tondan artıq məhsul tədarük olunmuşdur

***Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olub, əhalinin səmərəli məşğulluğunun və özünüməşğulluğunun təmin edilməsində mühüm rol oynayır.***



Muxtar respublikada bütün sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafı da ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz müstəqilliyimizin ilk illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ulu öndərimiz bu sahənin inkişafı ilə bağlı mühüm tədbirlər görmüşdür. Belə ki, 1992-ci il aprelin 6-da keçirilən sessiyada "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmış, daxili bazarda məhsul bolluğu yaradılmışdır.

Sonrakı dövrlərdə kənd təsərrüfatının şaxələndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, dinamik inkişaf qorunub saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulmuş vəzifələrin kompleks şəkildə həyata keçirilməsinə geniş imkanlar yaratmışdır.

Dövlət proqramına uyğun olaraq ötən dövr ərzində torpaq sahələrinin meliorativ cəhətdən münbitləşdirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və suvarma suyuna olan tələbatın səmərəli ödənilməsi məqsədilə əkin sahələrinin və müvafiq infrastrukturun sel və daşqınlardan mühafizəsi təmin edilmiş, qapalı suvarma şəbəkələri qurulmuş, mövcud su anbarlarında təmir işləri aparılmış, yeni nasos stansiyaları, subartezian quyuları tikilmiş və ya əsaslı təmir olunmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların verilməsi, onların lazımi texnika və gübrələrlə vaxtında, güzəştli şərtlərlə təminatı, genişmiqyaslı kreditləşdirmənin və satış yarmarkalarının təşkili əhalinin keyfiyyətli yerli ərzaq məhsulları ilə etibarlı təminatına böyük stimul yaratmışdır. Ərzaq məhsullarına olan tələbatın yerli məhsullar hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur".***

Aqrar sektorda nəzərdə tutulan işlərin keyfiyyətlə yerinə yetirilməsi, sahibkarların əməyinin yüngülləşdirilməsi, məhsul istehsalçılarının texnika ilə təmin olunması istiqamətində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 143 ədədi cari ilin yanvar-iyul aylarında olmaqla, ümumilikdə, 1978 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2017-ci ilin yanvar-iyul aylarında əvvəlki dövrdə gətirilənlərlə birlikdə 175 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 7 ədədi nağd yolla satılmışdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər prioritet sahə olan taxılçılığın inkişafına da geniş imkanlar yaratmışdır. Belə ki, muxtar respublikada 2017-ci ilin məhsulu üçün əkilmiş 61 min 531 hektar sahənin 31 min 632 hektarını və yaxud 51,4 faizini taxıl zəmiləri təşkil etmişdir ki, bu da "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qəbul edildiyi ildən bir il öncəki ildə, yəni 2007-ci ildə əkilmiş taxıl əkini sahəsindən 7 min 644 hektar çoxdur. Taxıl əkini sahəsinin 22 min 268 hektarında buğda, 9 min 364 hektarında isə arpa əkilmişdir. Əkin sahəsinin 954 hektarı və yaxud 3 faizi Naxçıvan şəhərinin, 4 min 144 hektarı və yaxud 13,1 faizi Şərur, 10 min 420 hektarı və yaxud 33 faizi Babək, 1671 hektarı və yaxud 5,3 faizi Ordubad, 6 min 48 hektarı və yaxud 19,1 faizi Culfa, 4 min 364 hektarı və yaxud 13,8 faizi Kəngərli, 1591 hektarı və yaxud 5 faizi Şahbuz, 2 min 440 hektarı və yaxud 7,7 faizi isə Sədərək rayonlarının payına düşmüşdür.

2017-ci ildə muxtar respublikada taxıl əkini sahələrindən 93 min 419 ton məhsul yığılmışdır ki, bu da 2007-ci ildə yığılan məhsuldan 19 min 50 ton çoxdur. Bu dövr ərzində yığılan məhsulun 66 min 95 tonu buğda, 27 min 324 tonu isə arpadır. Yığılan məhsulun 2 min 604 tonu və yaxud 2,8 faizi Naxçıvan şəhərinin, 13 min 171 tonu və yaxud 14,1 faizi Şərur, 32 min 820 tonu və yaxud 35,1 faizi Babək, 4 min 706 tonu və yaxud 5 faizi Ordubad, 15 min 873 tonu və yaxud 17 faizi Culfa, 12 min 134 tonu və yaxud 13 faizi Kəngərli, 4 min 252 tonu və yaxud 4,6 faizi Şahbuz, 7 min 859 tonu və yaxud 8,4 faizi Sədərək rayonlarının payına düşmüşdür.

Strateji əhəmiyyətə malik olan taxılçılıqda məhsuldarlığın ekstensiv üsulla deyil, müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan metodlarla artırılması diqqətdə saxlanılır. Bu istiqamətdə məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə 2017-ci ildə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunmuşdur. Əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikası "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları – 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtrtəmizləyici, avtobus, hidravlik ekskavator, yanacaq tankeri, toxumörtən, diskli kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, 2 elevator, 80 tonluq elektron tərəzi, eləcə də digər maşın və avadanlıqlar təqdim olunmuşdur. Yeni alınan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaqdır. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Taxılçılığın inkişafında mühüm mərhələ sayılan taxıl anbarlarının yaradılması istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, ötən dövrdə 27 min ton taxılı uzun müddətə saxlamağa imkan verən taxıl anbarının istifadəyə verilməsi muxtar respublikada taxıl ehtiyatlarının yaradılmasında və istehsalçıların məhsul tədarükü zamanı rastlaşdıqları çətinliklərin aradan qaldırılmasında xüsusi rol oynamışdır. Ötən dövrlər ərzində muxtar respublikada taxılın mərkəzləşdirilmiş qaydada satın alınması məhsul istehsalçılarının taxıl istehsalına marağını daha da artırmışdır.

*Həyata keçirilən kompleks tədbirlər muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafını təmin etmiş, 2016-cı ildə 2007-ci illə müqayisədə məhsul istehsalının dəyəri 3,5 dəfə artaraq 430 milyon manata çatmışdır. Məhsul istehsalının dinamik artımı cari ilin ötən dövrü ərzində də davam etmiş, kənd təsərrüfatı sahəsində 224 milyon manat dəyərində məhsul istehsalı qeydə alınmışdır ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 3,4 faiz çoxdur.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

---

***Şərur Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işi sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.***

## Şərur rayonunda sığorta fəaliyyətinin təşkili müzakirə edilib



Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov açaraq rayonda sığorta sahəsində aparılmış tədbirlərdən danışıb. Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikada davamlı iqtisadi və sosial inkişafın tərkib hissəsi kimi sığorta işinin əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, sığortanın müasir tələblərə uyğun şəkildə qurulması işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublika sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır.

Diqqətə çatdırılıb ki, vətəndaşlar vaxtında sığorta olunmaqla sığorta hadisələri baş verdikdə sağlamlığa, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə görə ödəniş alır, bununla da, vurulmuş zərərlərin qısa müddətdə bərpa olunmasına şərait yaranır. Buna görə də ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən vətəndaşlar belə gözlənilməz hadisələrdən sığorta olunmalıdırlar. Bu məqsədlə sığorta sahəsində işlərin daha da genişləndirilməsinin vacib olduğunu bir daha qeyd edən Hikmət Əsgərov bildirib ki, ötən müddətdə Şərur rayonunda da bu istiqamətdə müəyyən işlər görülüb. Belə ki, ümumilikdə, rayon üzrə cari ilin ilk 7 ayında 6 min 295 sığorta müqaviləsi bağlanılıb, onlardan 1463-ü avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 2 min 359-u daşınmaz əmlakın icbari sığortası olub.

Baş direktor Şərur rayonunda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işləri təhlil edərək qarşıda duran vəzifələrdən danışıb.

Vurğulanıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığortanın şamil olunduğu bütün obyektlərin sığortası təmin olunmalıdır. Son dövrlərdə Şərur rayonunda sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta olunmalı olan vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər qalmaqdadır. Rayonda sığorta fəaliyyətinin günün tələbləri səviyyəsində genişləndirilməsi məqsədilə bu sahədə maarifləndirmə işlərinə diqqətin artırılmasının vacib olduğu qeyd edilib.

Tədbirdə kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bildirilib ki, kənd təsərrüfatında aparılan sığorta işi torpaq mülkiyyətçilərinin və fermerlərin istehsal etdikləri məhsullara dəyməsi ehtimal olunan zərərlərə qarşı hazırlıqlı olmasına təminat verir. Buna görə də Şərurda əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının, habelə ev heyvanlarının sığortalanması məqsədilə fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri arasında maarifləndirici işlər genişləndirilməlidir.

Sonra Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Zamiq Məmmədov, rayon Dövlət Yol Polisi Bölməsinin rəisi, polis kapitanı Ədalət Şükürov, Şərur şəhər, Cəlilkənd, Oğlanqala və digər kənd icra nümayəndələri sığorta sahəsində görülmüş işlər barədə məlumat veriblər.

Tədbirə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov yekun vuraraq rayonda sığorta işinin günün tələbləri səviyyəsində aparılması istiqamətində müvafiq tapşırıqlar verib.

**✍ Əli CABBAROV**

---

## Səyyar xidmətin fəaliyyəti razılıqla qarşılanır

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyar xidmətin fəaliyyəti əhali tərəfindən böyük rəğbətlə qarşılanır.*



Nazirliyin əməkdaşı, polis kapitanı Seymur Tağıyevdən aldığımız məlumata görə, səyyar xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının, şəxsiyyət vəsiqəsinin verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, eləcə də məhkumluq haqqında və arxiv arayışlarının verilməsi üzrə hüquqi xidmətlər göstərilir.

Seymur Tağıyevin sözlərinə görə, səyyar xidmət hazırda fəaliyyətini Babək qəsəbəsində davam etdirir. Ötən günlərdə Nehrəm kəndində olan xidmətin əməkdaşlarına, ümumilikdə, şəxsiyyət vəsiqəsi üçün 34, sürücülük vəsiqəsi üçün 10 nəfər müraciət edib. Səyyar xidmətin növbəti ünvanı isə Yarımca kəndi olacaq.

**Muxtar RZAZADƏ**

**Ulu öndər Heydər ƏLİYEV: Zəfər bayramı türk xalqının… tarixində çox əlamətdar və tarixi gündür. Birinci Dünya müharibəsindən sonra… Türkiyəni hər tərəfdən dağıtmağa, parçalamağa çalışdılar. Ancaq türk xalqı bunların hamısına sinə gərdi, öz qəhrəmanlığını göstərdi və türk əsgəri nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.**

# Şanlı zəfər tarixi



1919-cu ildə türk xalqı öz dövlətçiliyini qoruyub saxlamaq və vətəni işğaldan azad etmək uğrunda mübarizəyə qalxdı. 1920-ci il aprelin 23-də Anadoluda Türkiyə Böyük Millət Məclisi təsis edilərək xalqın iradəsinə əsaslanan, xalqı təmsil edən hökumət quruldu. Bunun nəticəsi olaraq bütün cəbhələrdə düşmənlərə qarşı uğurlu hərbi əməliyyatlara başlanıldı. İlk qələbə sədası Şərq cəbhəsindən gəldi. Burada erməni quldur dəstələri üzərində qazanılan qələbə zəfər yürüşünün başlanğıcı oldu. 1921-ci ilin avqust-sentyabr aylarında Sakarya müharibəsində yunan qoşunlarının məğlub olmasıyla türk ordusu müdafiə mövqeyindən hücum mövqeyinə keçdi. Görkəmli dövlət xadimi, istedadlı hərbçi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazandı. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil oldu. Hər il avqust ayının 30-u Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü kimi qeyd olunur.

Mustafa Kamal Atatürkün qurduğu Türkiyə Respublikası bu gün bölgənin ən qüdrətli dövlətlərindəndir. Türkiyə beynəlxalq və regional münasibətlərdə söz sahibinə çevrilmiş, müxtəlif siyasi və iqtisadi layihələrin reallaşmasına öz töhfəsini vermişdir.

Qurtuluş savaşında Azərbaycan xalqı da qardaş Türkiyə xalqına dəstək oldu, onunla birgə döyüşlərdə iştirak edərək şəhidlər verdi. Ümumiyyətlə, böyük tarixi kökə malik olan Azərbaycan-Türkiyə əlaqələri hər il daha da möhkəmlənir. Bu əlaqələrin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır.

Ölkələrimiz arasındakı dostluq və inam xalqlarımızın rifahına, ölkələrimizin gələcək inkişafına xidmət edir. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Eyni zamanda ölkələrimiz beynəlxalq və regional təşkilatlarda həmrəylik nümayiş etdirirlər. Qardaş Türkiyə ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki ədalətli mövqeyini müdafiə edir, Azərbaycan da, öz növbəsində, Türkiyənin üzləşdiyi problemlərin həllində dəstəyini əsirgəmir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan-Türkiyə birliyinin strateji əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür".***

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri və rolu vardır. Naxçıvanla Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərin Ali Məclisin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri də Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malik olmuşdur. Səfər çərçivəsində Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti, Baş naziri, xarici işlər naziri və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşlər keçirmişdir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilir. Xüsusilə iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Bu əlaqələrin tərkib hissəsi kimi ordu quruculuğu sahəsindəki əməkdaşlıq da ilbəil genişləndirilir. Belə ki, 2014-cü ildə Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir. Həmçinin 2015-ci ilin mayın 12-15-də Azərbaycan-



Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimlərinin bir mərhələsinin Naxçıvanda keçirilməsi də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Ali Məclisin Sədri birgə hərbi təlimin əhəmiyyətini vurğulayaraq demişdir: ***"Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bir tərəfdən ölkələrimiz arasında imzalanmış strateji tərəfdaşlığın, qardaşlığın göstəricisidirsə, digər tərəfdən ümummilli lider Heydər Əliyevin kəlamları ilə desək – iki dövlətin bir millətin bir ordusunun birliyinin nümunəsidir. Keçirilən birgə hərbi təlim bir daha göstərdi ki, o ordu güclü deyil ki, onun silah-sursatı və hərbi texnikası var. O ordu güclüdür ki, onun əsgər və zabitində döyüş ruhu güclüdür, vətənpərvərdir. Bugünkü təlimlər yüksək əsgəri ruhun, peşəkarlığın və vətənpərvərliyin ifadəsinə çevrildi".***

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən bu il də Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri keçirilmişdir.

Azərbaycan-Türkiyə birliyi xalqlarımızın ən böyük tarixi nailiyyətidir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz getdikcə daha da inkişaf edəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaqlar.

**"Şərq qapısı"**

# Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyəti genişləndirilir

***Son illər Naxçıvanın tarixinin, arxeologiya və etnoqrafiyasının, mədəniyyətinin və təbii sərvətlərinin öyrənilməsi ciddi tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublika ərazisindəki tarixi abidələr tədqiq olunaraq pasportlaşdırılmış, tarix və mədəniyyət abidələrinin mühafizəsi təmin edilmiş, elmi simpoziumlar və konfranslar keçirilmişdir.***



Naxçıvana həsr olunmuş çoxlu sayda kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanması, tədqiq və təbliğ olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılmışdır. Bununla bağlı keçirilən açılış mərasimində Ali Məclisin Sədri demişdir: ***"Naxçıvan böyük bir tarixi keçmişə malikdir. Bu tarix Sovetlər Birliyi dövründə lazımi səviyyədə öyrənilməmiş, bir sıra ciddi elmi və nəzəri səhvlərə yol verilmişdir. Ulu öndər Heydər Əliyevin istər Azərbaycana rəhbərliyinin birinci, istərsə də ikinci dövründə xalqımızın tarixinin, mədəniyyətinin və milli dəyərlər sisteminin elmi dəlil və arqumentlər əsasında yenidən öyrənilməsinə başlanmışdır. Müstəqillik dövründə Azərbaycanın tarixi, arxeologiyası, etnoqrafiyası, ədəbi mühiti və mədəniyyəti vahid elmi konsepsiya baxımından öyrənilmiş, buna uyğun olaraq, Azərbaycanşünaslıq və onun tərkib hissəsi kimi Naxçıvanşünaslıq da elmi istiqamət kimi müəyyənləşmişdir".***

9 fevral 2013-cü ildən fəaliyyətə başlayan Naxçıvanşünaslıq Mərkəzinin qarşısında qoyulmuş vəzifələrin icrası ilə yaxından tanış olmaq üçün həmin ünvanda olduq. Mərkəzin direktoru Şahin Əliyarov bildirdi ki, mərkəzdə elmi-metodik, komplektləşdirmə, kitabişləmə və elektron kataloq, biblioqrafiya proseslərinin avtomatlaşdırılması və xidmət şöbələri, surətköçürmə otağı, elektron oxu zalı, dövri mətbuat və oxu zalı, arxiv fond, eləcə də dövlət orqanları, elmi müəssisələr, ali və orta ixtisas təhsili müəssisələri və yaradıcılıq təşkilatları tərəfindən nəşr olunan kitab və dövri mətbuat fondları mövcuddur.

Ötən dövr ərzində mərkəzə daxil olan bütün çap materiallarının komplektləşdirmə, kitabişləmə və elektron kataloq şöbəsində ümumi və fərdi uçotu aparılmış, elektron kataloqda işlənərək müvafiq fondlara təhvil verilmişdir.

Hazırda mərkəzin ümumi kitab fondunda 4 min 372 nüsxə çap materialı vardır. Bunlardan 3 min 274-ü kitab, 72-si miniatür kitab, 850-si qəzet və jurnal, 176-sı avtoreferatdır. Qeyd olunan bu çap materialları aidiyyəti üzrə müvafiq fondlarda yerləşdirilmişdir.

Dövlət orqanları tərəfindən nəşr olunan çap materialları fondunda muxtar respublikanın müxtəlif nazirlik və təşkilatları tərəfindən hazırlanmış çap materialları yerləşdirilmişdir.

Direktorun dediyinə görə, elmi müəssisələr tərəfindən nəşr olunan çap materialları fondunda AMEA və AMEA Naxçıvan Bölməsinə məxsus kitab, jurnal və avtoreferatlar yer almışdır. Ali və orta ixtisas təhsili müəssisələri tərəfindən nəşr olunan çap materialları fondunda muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinə məxsus çap məhsulları toplanmışdır. Yaradıcılıq təşkilatları tərəfindən nəşr olunan çap materialları fondunda isə Naxçıvan Muxtar Respublikasının Yazıçılar, Rəssamlar birliklərinə və Bəstəkarlar Təşkilatına aid kitablar yer almışdır.

Surətköçürmə otağında kitabların PDF formatı yaradılmış və mərkəzin internet saytına daxil edilmişdir.

Mərkəzin arxiv fondu da Naxçıvanşünaslığa dair arxiv materialları ilə zənginləşdirilmişdir. Burada Naxçıvanın ictimai-siyasi, elmi-mədəni həyatını əks etdirən arxiv sənədləri, həmçinin Naxçıvanın tarixini, mədəniyyətini, coğrafiyasını, sosial-iqtisadi inkişafını əks etdirən jurnal və qəzet materialları, xəritə və atlaslar, albom və fotomateriallar, DVD və CD formatında sənədli filmlər toplanmışdır.

Biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsində qəzet və jurnallardan Naxçıvanşünaslığa dair ən mühüm məqalələr seçilərək elektron qaydada işlənmiş və ənənəvi olaraq kartotekalara yerləşdirilmişdir. Şöbədə "Heydər Əliyev", "Naxçıvanşünaslıq" və "Sərəncamlar" başlığı altında yeni kartotekalar yaradılmış və məqalələrlə zənginləşdirilmişdir. Hazırda burada 3 mindən çox məqalə işlənmişdir.

Həmin şöbəyə müraciət edən oxucular muxtar respublika həyatının müxtəlif sahələrini əhatə edən elmi və publisist məqalələrdən istifadə edə bilirlər.

Şahin Əliyarov diqqətimizə çatdırdı ki, mərkəzin elektron kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunmuş, elektron kitabxana və elektron arxiv zənginləşdirilmişdir. Həmçinin mərkəzdə olan elektron köşk vasitəsilə oxucuların kitab fondunun elektron kataloqu ilə tanış olmaq, sorğulara operativ cavab almaq və virtual sifariş vermək imkanları da var. Dövri mətbuat və oxu zalında istifadəçilər üçün fonddakı kitablardan, qəzet və jurnallardan, eləcə də internetdən istifadə imkanı yaradılmışdır.

Üç dildə hazırlanan *www.e-merkez.alimeclis.az* internet saytı Naxçıvanşünaslıq Mərkəzi ilə səmərəli informasiya mübadiləsi aparmağa imkan verir.

Naxçıvanşünaslıq Mərkəzinə müraciət edən hər bir şəxs mərkəzin fəaliyyəti və buradan istifadə qaydaları haqqında məlumatlandırılır. İndiyədək mərkəzin xidmət şöbəsində 746 nəfər qeydiyyatdan keçərək oxucu bileti ilə təmin edilmişdir. Oxucular içərisində ali və orta ixtisas təhsili məktəblərinin tələbələri çoxluq təşkil edirlər.

Direktorun sözlərinə görə, Naxçıvanşünaslığa aid materialların qorunub saxlanılması ilə yanaşı, onlar haqqında məlumatların gənc nəslə çatdırılması və təbliği də diqqətdə saxlanılır. Bu məqsədlə ötən dövr ərzində elmi-metodik şöbə tərəfindən mərkəzdə bir sıra açıq dərs və tədbirlər təşkil edilmişdir. Ali və orta ixtisas təhsili müəssisələrinin kollektivinin, tələbələrin iştirakı ilə Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər keçilmişdir. Bu dərslərdə Naxçıvanın qədim və müasir tarixi, coğrafiyası, folkloru, iqtisadiyyatı, memarlığı, incəsənəti, təbiəti, tarixi abidələri, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti kimi mövzuların gənclərə çatdırılmasına daha çox yer verilmişdir. Ümumilikdə, fəaliyyəti dövründə Naxçıvanşünaslıq Mərkəzində 246 açıq dərs və tədbir keçirilmiş və bu tədbirlərdə 4870 dinləyici iştirak etmişdir.

Şahin Əliyarovla söhbətimizdən aydın oldu ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifələr bundan sonra da Naxçıvanşünaslıq Mərkəzinin əsas fəaliyyət istiqaməti olacaq və mərkəz Naxçıvan Muxtar Respublikasının tarixi, elmi, ədəbi mühiti, incəsənəti, təbii sərvətləri, mədəniyyəti, habelə Naxçıvanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin öyrənilməsi və təbliği sahəsində həyata keçirdiyi tədbirləri davam etdirəcəkdir.

**Gülcamal TAHİROVA**

# Seminar - müşavirə keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar avqustun 26-da keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində seminar-müşavirə keçirilib.*



Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Yasin Əliyevin, Elxan Novruzovun, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədovun çıxışları olub. Çıxışlarda bildirilib ki, 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar sərnişindaşıma fəaliyyəti göstərən avtonəqliyyat vasitələrinin texniki müayinəsi təşkil edilib. Bu məqsədlə avqust ayının 11-dən 19-dək 303 ədəd avtobus və mikroavtobus texniki müayinədən keçirilib, 44 ədəd avtobusdakı bəzi nasazlıqların aradan qaldırılması üçün onlara vaxt verilib, istismara uyğun olmayan 6 avtobus marşrutdan kənarlaşdırılıb.

Avqust ayının 19-dan 25-nə kimi muxtar respublika ərazisində fəaliyyət göstərən 496 ədəd taksi payız-qış mövsümünə hazırlıq məqsədilə texniki müayinədən keçirilib, nasazlıqlar aradan qaldırılıb.

Bundan əlavə, nazirliyin reyd komissiyası tərəfindən keçirilən yoxlamalar zamanı qeyri-qanuni sərnişin və yükdaşıma ilə məşğul olan avtonəqliyyat vasitələri müəyyən olunub, sahibləri ilə profilaktik iş aparılıb.

Sonra seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**



Dini ziyarətgahlarımız

## Müqəddəs məkanda bir gün

### “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksindən reportaj

***Qədim Naxçıvan torpağı canlı təbiət muzeyi, görkəmli şəxsiyyətlərin vətəni, Nuh Peyğəmbərin ayağı dəyən torpaq, müqəddəs bir məkandır. Gəmiqaya ilə başlayan belə müqəddəslik ünvanlarını Naxçıvanın bir sıra yerlərində görmək olar. Onlardan biri və ən mühümü Əshabi-Kəhf ziyarətgahıdır. Naxçıvan şəhərindən 12-13 kilometr məsafədə yerləşən bu müqəddəs məkan inanclara görə, daha çox mənəvi təmizlənmə və Allaha yaxınlaşma yeridir. Aşağıdan yuxarıya doğru ziyarət edərək qalxan insan dünyəvi aləmdən ayrılır, sanki rəbbani məqama daxil olur, özünü bağışlanmışlardan sayır.***





Müqəddəs kitabımız “Qurani-Kərim”in “Əl-kəhf” (Mağara) surəsində bu ziyarətgahdan bəhs olunur. 18-ci surənin 7-ci ayəsində bu barədə deyilir: “Beləcə, (insanları) onları xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunu qiyamətin şübhə götürməz olduğunu bilsinlər... Üzərinə bir bina tikin. Rəbləri onları yaxşı bilir”.

Buraya naxçıvanlılarla yanaşı, həm ölkəmizin digər bölgələrindən, həm də xarici ölkələrdən ziyarətçilər gəlir. Çünki bu müqəddəs məkanın sorağı hər yerə yayılıb. Ürəyində niyyət tutub buraya gələnlər ziyarətgahdan ulu Tanrıya dua edə-edə qayıdıblar. Bu yerin müqəddəsliyini gözləri ilə görüblər.

Budur, biz də Əshabi-Kəhfdəyik. Burada ilk olaraq “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinin direktoru Qaraş Qurbanovla görüşürük. O bildirir ki, uzun illər bu ünvana ziyarətçilər gəlib-getsə də, bura dövlət nəzarətindən kənarda olub. Ancaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ sovet hakimiyyətinin qadağalarına baxmayaraq, o illərdə xalqımızın dininə, inanclarına hörmət bəsləyir və müqəddəs yerlərə qayğı göstərirdi. Bu qayğını dahi öndər müstəqillik dövrümüzdə də davam etdirirdi. Görkəmli dövlət xadiminin 1998-ci ildə Əshabi-Kəhfin abadlaşdırılması və bərpa edilməsi barədə göstəriş verməsi xalqımızın dininə və tarixinə göstərilən qayğının bariz nümunəsidir.

Muxtar respublikamızda geniş vüsət alan quruculuq tədbirləri belə müqəddəs ünvanları, dini abidə və ziyarətgahları da əhatə edir. Bunun ifadəsidir ki, 2006-cı ildə Əshabi-Kəhf tarixi abidəsi və ziyarətgahı tamamilə yenidən qurulub. Burada aparılan təmir-bərpa işlərindən sonra məscid binası bir qədər də cəzbedici olub. Məscidin içərisinə kəsmə daşlar döşənib, antik formada şəbəkəli pəncərələr quraşdırılıb. 1769-cu ildən naxçıvanlı Şükürullah xan tərəfindən burada “Qurani-Kərim”in “Əl-kəhf” surəsi yazılan mərmər daşın ətrafı xüsusi kərpiclə hörülüb. Ən mühüm yeniliksə məscidin həyətindəki qara daşın üzərində ucaldılan səkkizbucaqlı, günbəzli tikilidir. İkitərəfli qapısı olan bu günbəz milli memarlıq xüsusiyyətlərini əks etdirən ornamentlərlə bəzədilib. Cənnət bağına qalxmaq üçün quraşdırılan pilləkənlər də möhkəmləndirilib, rənglənib. Damcı mağarada görülən işlər isə xüsusilə təqdirolunasıdır. 21 metrdən yuxarı olan bu yüksəkliyə doğru 50 metr məsafədə geniş pillələr hörülüb, ətrafı dəmir məhəccərlərlə haşiyələnib. Mağaranın içərisində də abadlıq işləri görülüb, sal daşlar düzülüb, xüsusi oturacaqlar quraşdırılıb. Pilləkəndən məscidin həyətinə qədər olan 206 metr uzunluqda məsafəyə 75 metr hündürlüyü qət etməklə inşaat materialları daşınıb. Həmçinin Damcı mağarasında görülən işlər də daxil olmaqla burada tonlarla tikinti materialından istifadə olunub. Bütün bunlar isə heç bir texniki vasitədən istifadə edilməməklə yerinə yetirilib.

Burada 2 çayxana, yerli məhsulların və hədiyyəlik əşyaların satıldığı 2 mağaza fəaliyyət göstərir. Bu obyektlərdə yaradılmış şərait zəvvarların ürəyincədir. Çayxanalarda muxtar respublikamızda yetişən müxtəlif müalicəvi otlardan hazırlanmış çaylar ziyarətçilərə təklif olunur. Xidmət pulsuzdur. Kompleksin mağazalarında muxtar respublikanın emal və istehsal müəssisələrinin məhsulları – sular, şirniyyatlar, həmçinin regionun tarixi-memarlıq abidələrini özündə əks etdirən nəfis əl işləri, dekorativ-tətbiqi sənət nümunələri məmulatları satılır. Bu da həmin məhsulların təbliğində, həm də buraya digər yerlərdən gələn ziyarətçilərdə qədim diyarımız haqqında müəyyən bilgilər yaranmasında mühüm əhəmiyyət daşıyır.

Qaraş Qurbanovun sözlərinə görə, hər il ziyarətgaha minlərlə adam gəlir. Cari ildə 34 nəfərlik qrupla Cəlilabad rayonundan, 18 nəfərlik qrupla İran İslam Respublikasının Tehran şəhərindən, fərdi halda 500 nəfərdən çox Bakı şəhərindən, 300 nəfər isə İran İslam Respublikasından ziyarətə gəlib. Pakistan, İran İslam Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Yaponiya, İsrail, Gürcüstan, Rusiya Federasiyası və başqa ölkələrin vətəndaşları buranı ziyarət ediblər.

Bu gün bu müqəddəs məkan həmişəki kimi yenə də zəvvarlarla doludur. Onlardan biri Türkiyə Respublikasının İqdır vilayətinin Aralıq kəndindən gəlmiş Qurban Turanla hədiyyələr satılan mağazada həmsöhbət oluruq. Bildirir ki, dəfələrlə Naxçıvana gəlsə də, buraya birinci dəfədir ki, ayaq basır. Naxçıvan-Ordubad magistralından ziyarətgaha ayrılan yoldan başlayaraq gördükləri onun çox xoşuna gəlib. Müasir üslubda işlənmiş yol, yol kənarlarında salınmış yaşıllıq zolaqları, kompleksin həyətində həyata keçirilmiş genişmiqyaslı quruculuq tədbirləri muxtar respublikada dini dəyərlərə göstərilən böyük ehtiramın ifadəsidir.

Cavid Zamanov Bakı şəhərindən ailəsi ilə Əshabi-Kəhfi ziyarət etməyə gəlib. Onunla bu ziyarətgahın tarixi barədə söhbət edirik. Müsahibimizin dediklərindən hiss etmək çətin deyil ki, son illərdə muxtar respublikada dini dəyərlərin təbliği ilə bağlı görülən işlər öz bəhrəsini verir. Cavid Naxçıvanda bu tədbirlərin belə geniş şəkildə həyata keçirilməsini naxçıvanlıların doğma yurda, onun tarixinə, xalqımızın min illər boyu yaşadılmış milli və mənəvi dəyərlərinə bağlılıqları ilə izah edir.

Əmir Kabusi tehranlıdır. Hər il buranı ziyarətə gəlir. Deyir ki, Şərq ölkələrinin bir çox ziyarətgahlarını gəzmişəm. Etiraf edim ki, Əshabi-Kəhfdə gördüyüm səliqə-sahman, burada zəvvarlara göstərilən xidmət mənə daha xoş təsir bağışladı. Eşitmişdim ki, Əshabi-Kəhf dünyada ən müqəddəs yer sayılan birinci ziyarətgahdır. Bunu öz gözlərimlə gördüm. Burada sanki insana ulu Tanrıdan güc, qüvvət gəlir. Belə olmasaydı, heç bir ziyarətçi kompleksin ən yüksək zirvəsinə qalxa bilməzdi. Bu gün bu yüksəkliyi uşaqlar da, yaşlılar da, necə deyərlər, birnəfəsə qət edirlər. El arasında deyirlər ki, Əshabi-Kəhfi 7 il dalbadal ziyarət etmək Kərbala, hətta Həcc ziyarətinə bərabərdir. Yəni həmin ziyarətgahlara gedə bilməyənlər Əshabi-Kəhfdə olmaqla savaba çata bilərlər. Əmir Kabusi burada yaradılmış şəraitə görə minnətdarlığını bildirir.

Ziyarətgaha İran İslam Respublikasının Təbriz şəhərindən gələnlər də var. Onlardan ikisi ilə həmsöhbət oluruq. Əhməd Cənnətifər deyir ki, hər il bu ziyarətgaha gəlir. Ürəyində tutduğu niyyətə çatdığından bura inamı get-gedə güclənir. Həmsöhbətim kompleksdə çalışanların zəvvarlarla münasibətlərindən xeyli razılıq edir.

Bəsti Əsliab Əshabi-Kəhfin aşağısındakı 15 dəqiqədən bir qaynayıb-köpüklənən mineral bulaq haqqında danışır: Eşitmişdim ki, sehrli xüsusiyyətlərinə görə bu bulaq insanlar arasında müqəddəs sayılır. Bura müxtəlif xəstəlikləri olan adamlar gəlirlər. Özüm də bunun şahidi oldum. Bulağın ən kəsərli vaxtı köpüklənmənin şiddətləndiyi vaxtdır. İlin bütün fəsillərində beləcə qaynayıb-yatan bulaqda təkcə xəstələr deyil, bəzi zəvvarlar da yuyunub təmizlənirlər. Burada yuyunmaq ziyarətə hazır olmaq deməkdir.

Ziyarətgahda ən uca (yüksək) məqam “Cənnət bağı” adlanan yerdə də oldum. Əvvəllər bura çıxmaq çox çətin idi. İndi isə dəmir pilləkənlər bu işi asanlaşdırıb. Bu məqam duaların qəbul olduğu yer sayılır. Ulu Tanrı hamının dualarını qəbul etsin. Bu şəraiti yaradanların ömrü uzun olsun...

...Qısa zaman kəsiyində ziyarətgahda çoxları ilə həmsöhbət olduq. Onların bu müqəddəs məkan haqqında təəssüratlarını dinlədik. Zəvvarların ümumi fikri isə belə oldu: Naxçıvan tolerantlığa hörmət edən, milli və mənəvi dəyərlərə sadiq olan bir məmləkət, həm də müqəddəs bir diyardır. Əshabi-Kəhfdə aparılan genişmiqyaslı quruculuq tədbirləri bu müqəddəsliyi qorumaq, gələcək nəsillərə çatdırmaq baxımından zəvvarlarda xoş duyğular yaradır.

✍ **Muxtar MƏMMƏDOV**

*Təhsil millətin gələcəyidir*

## Qazanılan uğurlar artır, nəticələr sevindirir

*Şərur tarixən tanınmış ziyalıların doğulub boya-başa çatdığı bölgə olub. Bu ənənə indi də davam etdirilir. Rayonda istifadəyə verilən yeni təhsil ocaqları, yeniləşən təhsil infrastrukturu ali məktəblərə qəbul olunan gənclərin sayının daha da artmasına, onların yüksək nəticələr göstərməsinə səbəb olur. 2016-2017-ci tədris ilində ali məktəblərə qəbul imtahanlarının nəticələrinə əsasən onu deyə bilərik ki, bu il də rayonun göstəriciləri sevindiricidir.*

2016-2017-ci tədris ilində rayonun tam orta təhsil məktəblərinin 543 məzunu olub, onlardan 1-i “Qızıl”, 1-i isə “Gümüş” medala layiq görülüb. Məzunlardan 277-si ali məktəblərə qəbul olaraq tələbə adı qazanıb. Onların 36-sı 500-700, 6-sı 600-650, 1 nəfəri isə 650-700 intervalında bal toplayıb. Doqquzillik bazadan 88 nəfər orta ixtisas məktəblərinə qəbul olunub.



Çərçiboğan kənd tam orta məktəbinin məzunu Elvin Ramazanov qəbul imtahanlarında 682 bal toplayıb. Bu, cari ildə Şərur rayonu üzrə ən yüksək nəticədir. O, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olub. Atası polis mayoru, anası tibb bacısıdır. Valideynləri Bakı şəhərində yaşasa da, Elvin kənddə nənəsinin himayəsində – Çərçiboğan kəndində boya-başa çatıb, təhsil alıb. Onunla söhbətdə dedi: – Orta məktəbdə dərslərimi əla qiymətlərlə oxuyurdum. Məktəbimizdə hər cür şərait var. Ən böyük arzum qanun keşikçisi kimi cəmiyyətimizə faydalı olmaqdır. Amma qarşıda daha məsuliyyətli bir dövr vardır. Tələbə adını qazanmaqla iş bitmir. Daha çox oxumaq, öz üzərində işləmək, ən azı iki xarici dil öyrənmək lazımdır. Bunun üçün biz gənclərə hər cür şərait yaradılıb. Ona görə də dövlətimizə çox minnətdaram. Çalışacağam ki, valideynlərimi, mənə dərs deyən müəllimləri bundan sonra da sevindirim”.



Aysel Qəhrəmanova isə rayonun Kürçülü kənd tam orta məktəbini bitirib. 647 balla Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına daxil olub. Dediyinə görə, hələ kiçik yaşlarından müəllim olmaq istəyib. Aysel qazandığı uğurlar üçün müəllimlərinə çox minnətdar olduğunu bildirdi.

– Siz də gələcəkdə müəllim olacaqsınız. Yaxşı müəllimi necə təsəvvür edirsiniz? – soruşduqda Aysel cavab verdi ki, bunun üçün, ilk növbədə, vətənpərvər olmalısan. Vətənpərvərlik ən ali dəyərdir. Vətənə sevgi hər bir insana hələ orta məktəbdən aşılanır.

Aysel onu da bildirdi ki, ölkəmizdə insan amilinə, təhsilə çox ciddi diqqət yetirilir. Bu diqqət və qayğının müqabilində yaxşı oxumalı, gələcəkdə xalqımız üçün yararlı kadr olmalı, daim çalışmalıyıq. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-2017-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş və ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplamış tələbələrlə görüşünün həyatının ən unudulmaz günlərindən biri olduğunu bildirən Aysel onu da qeyd etdi ki, hələ məktəbdə oxuduğu illərdə məzunların belə görüşlərdə iştirak etdiklərini eşidər və bu görüşün ona da qismət olmasını arzulayarmış. Görüşdə Ali Məclis Sədrinin dediyi bu sözlər isə onun yaddaşından silinməyəcək: ***“...Seçdiyiniz ixtisas üzrə yaxşı bilik almaq, peşə öyrənmək, ölkə və xalq üçün faydalı olmaq qarşınızda əsas fəaliyyət istiqaməti kimi dayanmalıdır. Ali təhsil almaqla və peşə öyrənməklə yanaşı, xalqımızın adət-ənənələrinə, milli dəyərlərinə, eləcə də ümumbəşəri dəyərlərə dərindən yiyələnməlisiniz. Bizim təhsilimizin məqsədi həm də yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər yetişdirməkdir. Unutmayın ki, Azərbaycanın gələcəyi sizə etibar olunacaqdır. Ölkəmizin rifahı üçün çalışmalı, müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməli, daim azərbaycanlı olmağınızla fəxr etməlisiniz”.***



Digər bir həmsöhbətim Aysun Cəfərova isə Alışar kənd tam orta məktəbini bitirib. 644 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasında təhsil almağa qərar verib. O, ailənin ikinci övladıdır. Böyük qardaşı 686 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə qəbul olub. Aysun deyir ki, dil öyrənməyi çox sevir: – Bilirəm ki, inkişaf edən ölkəmizin, muxtar respublikamızın xarici ölkələrlə yaxın əlaqələri vardır. İngilis dili də beynəlxalq dildir. Hara getsən, hansı ölkəyə səyahət etsən, orada ingilis dili işlənir. Aysun onu da bildirir ki, istənilən xarici dili öyrənmək üçün ana dilimizi yaxşı bilməliyik. Bunun üçün Azərbaycan dilinin bütün incəliklərinə bələd olmaqla ingilis dilini daha dərindən öyrənməyə və gələcəkdə bu sahə üzrə yaxşı mütəxəssis kimi yetişməyə çalışacağam.

Naxçıvan Dövlət Universitetini seçmiş hər iki tələbəyə “Topladığınız yüksək balla müxtəlif universitetləri seçmək imkanınız olub. Siz niyə məhz bu ali məktəbə üstünlük verdiniz?” – sualını ünvanlayanda aldığımız cavab bizi çox fərəhləndirdi. Hər iki tələbə Naxçıvandakı təhsil ocaqlarını öz istəkləri ilə seçdiklərini bildirdilər. Qeyd etdilər ki, Naxçıvanda yüksək səviyyədə təhsil üçün hərtərəfli şərait yaradılıb. Bu gün bu təhsil ocağının dünyanın məşhur universitetləri ilə əlaqələri mövcuddur. Naxçıvan Dövlət Universiteti son illər beynəlxalq elmi konfransların keçirildiyi ünvana çevrilib.

Bu il avqustun 21-də ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşdə Ali Məclis Sədrinin çıxışında vurğulanan ***“Təhsil olmadan gələcək haqqında düşünmək mümkün deyil”*** qənaətində mühüm strateji sahə kimi təhsilə göstərilən diqqət bir daha öz təsdiqini tapır. Əminik ki, qarşıdakı təhsil illərində həmsöhbət olduğumuz tələbələr bu qayğıdan yetərincə bəhrələnəcək, onlara göstərilən etimadı doğruldacaq, doğma ölkəmizin, eləcə də muxtar respublikamızın inkişafı naminə əllərindən gələni əsirgəməyəcəklər. Çünki Azərbaycanın sabahı yüksək savada, intellekt və dünyagörüşünə malik belə vətənpərvər gənclərin əlindədir.

✍ **Ramiyyə ƏKBƏROVA**

***Bu günlərdə dəvət olunduğum bir toy məclisi çoxdandır beynimi qurcalayan fikirləri, nəhayət, qələmə almağa vadar etdi. Söhbət yenə də ayrı-ayrılıqda hər birimizin yaralı yeri olan, son dövrlərdə ictimai müzakirə mövzusuna çevrilən xeyir-şər mərasimlərimizə xas adət-ənənələrimizdən gedir. İlk olaraq yas mərasimlərimizdən yazmaq istədim. Ona görə yox ki, “Şər deməsən, xeyir gəlməz!” deyimini əsas götürdüm. Ona görə ki, toylarımıza nisbətən yas mərasimlərindəki vəziyyət çox-çox qənaətbəxşdir.***

*Yazmasaq, olmur*

# Bu bizik, biz deyilik?!

### *Ölən yazıq olur, yoxsa qalan?*

Bu gün Naxçıvanda yas mərasimlərində israfçılığın aradan qaldırılması yerli əhali tərəfindən böyük savab işi kimi minnətdarlıq hissləri ilə qarşılanır. Hətta Azərbaycanın Gəncə və digər bölgələrində ilk dəfə Naxçıvanda atılan bu addımdan ideal nümunə kimi faydalanmağa başlanılıb. Yoxsa ki, insanlar bilmirdi ağır itkilərinin, faciələrinin dərdini çəksinlər, ya məclis üçün növbənöv ehsan tədarükündə olsunlar. Qəbiristanlıqlarda aparılan abadlıq, səliqə-sahman işləri də sakinlərin ürəyincədir. Vaxtilə qəbiristanlıqlarda “məzarüstü abidələr ucaldıb”, ətrafında “memarlıq kompozisiyaları” yaradanları, sağ ikən özlərini burada “qeydiyyata saldırıb” şəxsi mülkləri kimi ərazi hasarlayıb zəbt edənləri görəndə fikirləşirdim: bəziləri xeyirxahlıq, humanizm, ədalət hissləri təlqin edən “İnsan gərək o biri dünyasını fikirləşə!” kəlamını, deyəsən, səhv anlayırlar. Nə dinə, nə mənəviyyata sığan bu əməllərin yalnız bir adı var: şöhrətpərəstlik azarı. Özü də elə adamlar bunu edir ki, həmin “əzizlərini” sağ ikən, ağır yataqda ikən günlərlə arayıb-axtarmayıblar. Heç bundan sonra mərhumun ailəsini, uşaqlarını düşünüb onlara maddi-mənəvi dəstək olmaq fikrində də deyillər. Əksinə, bəlkə də, elə günü sabah mülk davasına qalxacaqlar. Təki el-aləm mərhuma olan məhəbbətin dərəcəsinə heyran olsun. Digər bir “ölüyə məhəbbət nişanəsi” də şəhərin bu başından o başına uzanan dəfn karvanlarıdır. Hansısa zəruri işini, problemini bir kənara atıb, vacib işlərini yarımçıq qoyub dəfnə qaçan “könüllülər dəstəsi” yolda bir tıxac yaradırlar ki, gəl görəsən. Özü də heç də təmənnasız deyil ha, gərək sən də sabah mütləq filankəsin filankəsinin dəfnində necə olursa-olsun mütləq iştirak edib borcundan çıxasan. Xeyirdə-şərdə insanların bir-birinə mənəvi dəstək olmaları xalqımızın qədim adət-ənənəsidir. Lakin xeyir də, şər də insanların əzizləri, doğmaları üçündür. Qısa müddətə də olsa, bu, bütün şəhərin, məmləkətin gündəlik həyatına, iş-yaşayış ahənginə mane olmamalıdır axı. Qaldı ki, üçü, yeddisi, cümə axşamları, qırxı. Xüsusilə də bina evlərində (bu yerdə muxtar respublikanın ayrı-ayrı rayonlarında mərasim evlərinin tikilməsinin xüsusi razılıqla qarşılandığını xatırlatmaq istəyərdim) qadınlar qeybət eləməli olsalar da, hüzr yerində mütləq bir saat, saat yarım oturmalıdırlar. Gələnlər çöldə gözləsələr də, ev adamının tünlükdən, qulluq eləməkdən nəfəsi kəsilsə də olar. Tez durmaq yas sahibinə hörmətsizlikdir axı? Sabah o da eyni cür rəftar edə bilər. Əlqərəz, ölən ölüb gedir, vay qalanın halına. Bəzən hər şeydə olduğu kimi, yasda da, toyda da həddindən artıq ifrata varırıq. Bu da quru şöhrətpərəstlikdən, eqoizmdən, lovğalanmaqdan və bir də dahi Mirzə Cəlil demişkən, təqlidçilik azarından irəli gəlir. Keçək toylarımıza.




### *Toy, toy, toydu bu gün*

Ümumiyyətlə, yığıncaq keçirməyə son vaxtlar, necə deyərlər, bir növ adətkardə olmuşuq. Uşaq anadan oldumu, onun gələcək sağlamlığı, hərtərəfli müayinəsi və düzgün qidalanması qeydinə qalmaq əvəzinə onu doğum evindən xüsusi bəzədilmiş cah-cəlallı xarici maşında, kamera çəkilişinin müşayiətilə təmtəraqla çıxarmalıyıq. Körpəyə adqoydu, yeddi mərasimi, ad günləri də öz qaydasında, dəbdəbəli şəkildə keçirilməlidir. Kiçik toylar – müsəlmançılıqla bağlı bir adəti restoranlarda, içki məclisi ilə, xarici rəqslərlə qeyd eləməyin də bir özgə ləzzəti var. Bəzən öz şöhrətpərəstlik şakərimizdən ötrü hələ heç nə dərk etməyən yazıq uşaqları da bir neçə saatlığa “bəy stulunda” fərağat əyləşməyə məhkum edirik.




Övladın ali məktəbə qəbul oldumu, bir təmtəraqlı stol, bitirdimi bir təmtəraqlı stol, əsgərliyə getdimi bir təmtəraqlı stol, qayıtdımı bir təmtəraqlı stol və sair və ilaxır. Mən heç də insanın əziz, şad günlərini qeyd etməyin əleyhinə deyiləm. Əksinə, yarıkönül gəlib boğazdanyuxarı mübarəkbadlıq verən qeyri-səmimi insanlarla eyni süfrəni, daxili sevinci paylaşmaqla yalançı sosiallaşmanın, yalnız sənə aid olan əziz, yaddaqalan bir günü mənasızlaşdırmağın, cılızlaşdırmağın əleyhinəyəm. Belə əlamətdar günləri ən yaxın ailə üzvləri, doğmalarla qeyd etməyə çox vaxt şöhrətpərəstlik azarımız, pul yığmaq məqsədimiz yol vermir. Əvəzində isə bir də ayılırıq ki, başımız bu növ vacib əməllərə o qədər qarışıb ki, övladlarımızın təlim-tərbiyəsini, təhsilini unutmuşuq, onlardan mənən, ruhən nə qədər uzaqlaşmışıq, yadlaşmışıq. Bu zamanı və pulları onların mənəvi tərbiyəsinə, fiziki və psixoloji sağlamlığına, asudə vaxtlarını səmərəli keçirmələrinə, onlara mədəni zövq aşılamağa sərf etsək, daha hərtərəfli dünyagörüşə malik, müasir düşüncəli, özünəinamlı, intellektli və istedadlı gənclər yetişdirə bilərik. Bu sərmayəni daha əhəmiyyətli, mühüm perspektivli işlərə – səyahətlərə, mütaliə üçün maraqlı ədəbiyyatlar seçməyə, övladlarımızın dil öyrənmələrinə, əyləncə və istirahətlərinin mənalı təşkilinə yatırmaq olmazmı? Belədə, həm də elə ilk vaxtlardan övladlarımızın istedad və qabiliyyətlərini, maraq dairəsini kəşf edə bilərik.

### *Toya qədər sən küsməsən, toydan sonra düzələr (?!)*

Elə ki iki gəncin ailə qurmaq niyyətini bildik, təbii ki, əgər ona da ciddi müdaxilə etmiriksə, düşürük əl-ayağa, vurçatlasına. Bütün umu-küsülər, tərəflərarası münaqişələr də bundan sonra başlayır. Bəs neçə dəfə elçi gəlinməlidir, özü də elçilər Anarın “Evləri köndələn yar” əsərindəki kimi mütləq üç akademik, beş professor, ya da ən azından elmlər namizədi olmalıdır. Gəlinə qızıl və digər zinət əşyaları hansı bahalıqda alınmalıdır, cehizlik mebellər hansı məşhur xarici firmanın olmalıdır? Başlıq parası da ki öz yerində, qanı qiymətinə. Yeni yaranacaq ailənin psixoloji-fizioloji sağlamlıqları qeydinə qalmaq, lazım gələrsə tibbi müayinələrə, həkim məsləhətinə yönəltmək, gəncləri “ailə” adlanan kiçik dövlət quruculuğuna mənəvi-psixoloji cəhətdən hazırlamaq, ailədaxili münasibətlərin qurulduğu ilkin mərhələdə onlara dəstək olmaq əvəzinə öz “biznesimizi inkişaf etdiririk”.

Qədimdə nənə-babalarımız bir üzük, bir dənə də qırmızı yaylıqla gediblər bəlgəyə. Sonra da qonum-qonşu yığışıb hərə əlindən qopandan nə bacarırsa kömək etməklə, gənc ailənin zəruri ehtiyaclarını ödəməklə yeni qurulan ailəyə maddi və mənəvi dəstək olublar. Çox sadə, təmiz-talaq, mənəvi paklıq və halallıq üzərində qurulan ailələrin ömrü də uzun olub. Çünki gənclər də belə görüb-götürdüklərinə görə könlü-gözü tox olublar. Elə çoxuşaqlılıq da belə xoşbəxt ailələrin bəzəyi olub. Biz isə özümüz də bilmədən toy etmirik ey, özümüz-özümüzə lap toy tuturuq. Gənc ailəyə bolluca problemlər qoyuruq. Qır-qızıl, cer-cehiz, toy xərcini ödəməkdən lap nəfəsimiz kəsilir. Bir tərəfdən də vaxtilə toya gələn adamların toy borclarını qaytarmaq. Üstəlik də maddi rəqabət, şöhrətpərəstlik təməli bu cür qurulan ailələrin ömürlük yolyoldaşı olur. Gəlin deyir: “Bəs mənim filankəsin qızı, filankəsin gəlinindən nəyim kəm-kəsirdi ki, ona təkqaşlı brilyant, ağ qızıl, filan karatlıq komplekt gətiriblər, mənə yox?” Qayınana da: “Qonşular gələndə ananın verdiyi cehizi ortalığa çıxarmağa xəcalət çəkirəm. Atan niyə kürəkəninə maşın, ev almadı?” – deyə qeyzlənir. Bütün bu problemlər də ailələrin qısa zamanda dağılmasına, boşanmalara səbəb olur.

Hə, onu deyirdim axı. Qayıdaq toyqabağı “toylara”. Xınayaxma mərasimlərimiz həddindən artıq dəbdəbələşdirilib, yadlaşdırılıb. “Ciyər axşamı” deyilən toyqabağı axşamda da, çox təəssüf ki, bəzən ciyəryeyənlərin içki məclisinin səhərə qədər davam etməsi, hətta dava-dalaşla nəticələnməsi kimi neqativ hallara da rast gəlinir. Ev adamı da bilmir ki, sabahkı toy tədarükünün qeydinə qalsın, yoxsa bu məclisdəkilərə qulluq eləsin.

Toylarımız da ki xoşbəxtlik təzahürü, mədəni istirahət, mənəvi zövq üçün yox, sanki ancaq bolluca yeyib-içmək üçün nəzərdə tutulur. Elə bil kimsə sabahdan aclıq başlayacağı xəbərini verib. Cürbəcür salatlar, isti yeməklər, çərəz, meyvə, tort, dondurma, kürü, daha nə bilim nələr. Sonra da az qala bir həftə sağlamlıq problemləri yaşayırıq. İllah da ki, yayın cırhacırı ola. Tez xarab olan salat və ət yeməklərindən, keyfiyyətsiz içkilərdən, köhnəni təzəyə qatan restoran sahiblərinin mərhəmətinin bərəkətindən toydan sonrakı kütləvi zəhərlənmə halları azmı olur? Yeməklərin növ və çeşidinə diqqət etməklə həm ifrat israfçılığın qabağını almış olar, həm də əlavə xərclərdən yüngülləşməklə “nə edim, kimləri çağırım ki, toyun xərcini batırmayım?” problemi qarşısında qalmarıq. Toya dəvət məsələsi də elə buradan qaynaqlanan problemdir ki, xərci borcunu ödəsin deyə ucdantutma, yolüstü salamlaşdığımız adamları da toya çağırmaqla süni qələbəlik yaradır, bu da qonaqlara lazımi diqqət göstərə bilməməyimizə səbəb olur. Məgər özümüz də eynilə gözlənilməz toy dəvətnaməsinə ağızbüzən əks-tərəfin durumuna düşməmişikmi? Elə isə menyuya da, çağırılan qonaqların sayına da qənaət etməklə həm özümüzü, həm də başqalarını razı salmış olarıq.

Gələk daha əsas mətləbə. Toy iki gəncin qovuşduğu, yeni bir ailənin təməlinin qoyulduğu elə bir əlamətdar gündür ki, heç vaxt unudulmur. Yaddaşlarda, videokadrlarda yaşayır. Toyu əvvəlcədən hazırlanmış elə mənalı ssenari əsasında təşkil etmək lazımdır ki, hər anı xoş xatirələrlə yaddaqalan olsun. Hər dəfə o kadrlara mənəvi zövq ala-ala, təkrar-təkrar baxa bilək. Amma çox təəssüf ki, bugünkü toylarımızda ruhumuzu oxşayan milli musiqilərimizə, xalq mahnı və rəqslərinə, sümüyə düşən qara zurna, telli saz havalarına çox az yer verilir. Hanı əvvəlki toylarımızın zinəti olan yallılarımız, “Süleymanı”, “Uzundərə”, “Naz eləmə”, “Qaytağı” kimi oynaq, şux və nəhayət, özümüzün olan rəqslərimiz? Təəssüf ki, bütün başqa millətlərin hər janrda olan musiqilərindən rast gəlmək olur müasir toylarımızda. Ya da ki “Can-cana” və “Cəmilə” kimi əttökən bayağı musiqilərdən “feyziyab oluruq”. Bəzən də əsl Azərbaycan xanımına yaraşmayan şıdırğı kişisayağı oynayır, meydandan çıxmırıq. Axı bizim ana-nənələrimiz zorla ortalığa çağırılanda, xanım-xatınlıqları, su sonası kimi ahəstə, gül qədər zərif süzmələri ilə yerə-göyə naz satıblar. Vaxtilə toylarımızda tar, kaman və qaval üçlüyünün müşayiətilə səslənən gözəl musiqilərimiz ruhları təzələyər, toya xoş ovqat bəxş edərdi. Açıq havada qurulan böyük toy məğarında insanlar ellikcə yallı gedər, “Qazı-qazı”, “Kos-kosa” kimi xalq oyunları toya xüsusi şirinlik, şuxluq qatardı. Bu gün yadların “medlenno”ları əvəzinə Tofiq Quliyev, Elza İbrahimova, Emin Sabitoğlu kimi estrada musiqisinin, mahnı janrının ustadları olan gözəl bəstəkarlarımızın saf, ülvi məhəbbətdən yoğrulmuş, ürəkləri, ruhları ehtizaza gətirən həzin, lirik mahnılarının sədaları altında ahəstəcə rəqs etmək olmazmı? Bayağı, yorucu musiqilər bəs deyilmiş kimi, tikilişi akustik baxımdan şadlıq sarayı üçün nəzərdə tutulmayan restoranlarımızda dörd bir tərəfdən səsgücləndiriciyə o ki var güc verilir. Nəinki insanların, az qalır binanın zəhri yarılsın. Belə toylardan birində, o zaman dörd yaşı olan bacım qızı Xalidə əvvəlcə uşaq şıltaqlığı ilə səsinin eşidilməməsindən xoşlanaraq iki əlini ağzına tutub ucadan danışmağa başlamış, bir az sonra isə şəhadət barmaqları ilə qulaqlarını tıxıb: “Gedək, nə olar, çıxaq gedək evə!” – deyə təkid etməyə başlamışdı. Məmnuniyyətlə bu israra boyun əymişdim.

Bəzi “müasir” toylarımıza, buradakı son dəbdə, “zövqlə” geyinmiş “müasir” insanlara rast gələndə düşünürəm: “Avropalaşmaq, müasirləşmək qiyafədə zahirdə deyil, müasir elmi təfəkkür və dünyagörüşündə, həyata açıq baxışda, ziyalılıqda, mədəni davranış tərzində olmalıdır”. Son olaraq istərdim ki, dahi Üzeyir bəyin şah əsərləri əsasında çəkilən “O olmasın, bu olsun”, “Arşın mal alan” filmlərindəki toy səhnələrini, milli rəqslərimizi xatırlayıb dönüb müasir toylarımıza da nəzər salaq. Bax milli genezisimizdir, milli ruhumuzun tələbatıdır bizi eyni həvəslə, zövq ala-ala əzbər bildiyimiz bu filmlərə təkrar-təkrar baxmağa sövq edən.

*Əziz oxucum.* Mənim yazmaya bilmədiklərim, əslində, heç də tipik olmayan, lakin hamımızın tez-tez rastlaşdığı hallardır. Amma, nədənsə, ilk addım atmağa cəsarət etmirik. Məgər ana südü kimi halalımız olan, bizim millilik etalonumuz sayılan adət-ənənələrimizə, milli dəyərlərimizə hörmət üçün hansısa bir rəsmiləşdirmə, qanuniləşdirmə olmalıdır? Buna dövlət, rəhbər nəzarət etməlidir? Ən böyük nəzarət ictimai qınaq, özü-özünə nəzarət, ən ağır ittiham isə vicdanın səsidir. Ən məsul vəzifə vətəndaşlıq borcudur. Bu gün keçmişimizə sahib çıxmağı bacarmasaq, sabah gələcək qarşısında cavab verməli olacağıq. Necə deyərlər, bugünkü toylarımızın səsi sabah çıxacaq.

*Bütün sahələrdə öz müdrikliyi, uzaqgörənliyi, dəyərli ənənələri ilə seçilən Naxçıvan, inanıram ki, xeyir-şər mərasimlərimizlə də bağlı ideal nümunə olmağı bacaracaq. Bəs elə isə TOYUNUZ MÜBARƏK! Qoy hər birinizin evindən-ocağından toy səsi gəlsin.*

**Mehriban SULTAN**

**İtmişdir**

Naxçıvan şəhəri, “20 Yanvar” küçəsi, döngə 1, ev 14-də yaşamış Ağayeva Fatma Səttar qızının adına olan 2626 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 686